## *Peyvəndləmə*



Heyvanlar arasında profilaktik peyvəndləmə işləri yoluxucu xəstəliklərin baş verməsinin qarşısını almaq məqsədilə əvvəlcədən proqnozlaşdırılaraq tərtib edilən və aidiyyəti orqanlar tərəfindən təsdiq edilən epizootiya əleyhinə tədbirlər planına uyğun olaraq aparılır.

Profilaktik peyvəndləmələr heyvanların köklük dərəcəsinin orta vəziyyətdə olduğu vaxtda, stasionar şəraitdə saxlandığı dövrlərdə, əsasən, yaz və payız aylarında aparılır. İldə 2 dəfə profilaktik peyvəndləmə aparılması nəzərdə tutulan dabaq xəstəliyinə qarşı heyvanlarda təkrar peyvəndləmə 1-ci peyvəndləmədən 6 ay sonra həyata keçirilməlidir. Profilaktik peyvəndləmə işləri hər bir xəstəliyin təlimatına uyğun olaraq naxırda və ya sürüdə olan heyvanları tam əhatə etməklə qısa müddət ərzində həyata keçirilməlidir. Peyvəndləmə tədbirlərinin aparılması zamanı özəl baytarlıq mütəxəssislərinə kömək məqsədilə baytar köməkçilərinin qüvvəsindən istifadə edilir. Peyvəndləmə işlərinin vaxtında başa çatdırılması üçün heyvan sahiblərinin məsuliyyətinin vacibliyi barədə onlarla maarifləndirici söhbətlər aparılmalıdır.

Baş vermiş epizootiyanın xarakterindən asılı olaraq qeyri-sağlam məntəqədə və xəstəliyin yayılması təhlükəsi olan zonalarda bütün xəstəliyə həssas olan heyvanlar arasında əvvəl ona qarşı aparılan peyvəndləmənin vaxtından asılı olmayaraq məcburi qaydada təkrar peyvənd edilməlidir (dabaq, qarayara, qoyunların çiçəyi və s. xüsusi təhlükəli xəstəliklərə qarşı).

Heyvanların yoluxucu xəstəliklərdən qorunması üçün təsərrüfatlara, yaşayış məntəqələrinə baytarlıq-sanitariya üzrə yoxlanılmış sağlam heyvanların buraxılmasına, eyni zamanda yeni gətirilən heyvanların 30 gün müddətində təcrid olunmuş vəziyyətdə saxlanmasına, bu müddətdə həmin heyvanların lazımi müayinələrə və peyvəndləmələrə cəlb olunmasına ciddi nəzarət edilməlidir.

Heyvanlar arasında aparılan müayinə işləri və peyvəndləmə barədə baytar həkimləri tərəfindən bələdiyyələrin iştirakı ilə tərtib edilən aktda biopreparatı istehsal edən müəssisənin adı, biopreparatın seriya və nəzarət nömrəsi, buraxılma tarixi, yararlılıq müddəti, istifadə dozası və tətbiqi, işlənən biopreparatın miqdarı, qalıq vaksinin zərərsizləşdirilməsi, itkiyə gedən vaksinin miqdarı və infeksiya yerinin dezinfeksiya edilməsi göstərilməlidir. Peyvəndləmə zamanı obyektiv səbəblərdən itkiyə gedən vaksinin miqdarı 3-5%dən artıq olmamalıdır.

Qeyd: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 mart tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Baytarlıq sahəsində profilaktikası, diaqnostikası və ləğvi dövlət büdcəsindən maliyyələşdirilən heyvanların xüsusi təhlükəli xəstəliklərinin siyahısı"nda göstərilən xəstəliklər istisna olmaqla, digər xəstəliklərin qanunvericiliklə müəyyən edilmiş qaydada profilaktikası, diaqnostikası, müalicəsi və ləğv edilməsi xərcləri mülkiyyətçilərin vəsaiti hesabına həyata keçirilir.